Xalq qəzeti 3 fevral 2023-cü il, cümə

# Türkiyə–Azərbaycan – iki bədəndə bir can

## *Fevralın 1-də bir daha bu gerçəyin şahidi olduq*



***Türkiyə Prezidentinin açıqlamaları Azərbaycan xalqını çox məmnun etdi, bütün dünyaya göstərdi ki, Türkiyə–Azərbaycan birliyi sarsılmazdır və ağır günlərdə biz bir-birimizin yanındayıq. Mən bunu bir neçə dəfə demişəm, bir daha demək istəyirəm ki, əgər bu açıq mövqe göstərilməsəydi, bu gün başqa qüvvələr bu işlərə qarışa bilərdi. Onsuz da Ermənistanın məqsədi bundan ibarətdir.***

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
**19 oktyabr 2020-ci il**

**Azərbaycan Prezidenti İlham Əliyevin fevralın 1-də Türkiyə Respublikasının Milli təhsil naziri Mahmut Özeri və Türkiyə Böyük Millət Məclisinin bir qrup üzvünü videokonfrans formatında qəbul edərkən söylədiyi fikirlərin əks-sədası barədə hazırlamaq istədiyimiz qəzet materialının əvvəlində dövlət başçımızın 44 günlük müharibənin ortalarında dilə gətirdiyi məmnunluqdan sitat seçməyimiz təsadüfi deyil. Çünki Azərbaycan – Türkiyə dostluq, qardaşlıq və tərəfdaşlıq münasibətlərinin həmin günlərdəki zərurəti ilə bugünkü vacibliyi tam üst-üstə düşür.**

Bu, bir faktdır ki, o zaman da biz xalqımız və dövlətimiz üçün misilsiz əhəmiyyəti olan tarixi mübarizənin tən ortasındaydıq, indi də. O zaman da ermənilər dünyanın bir sıra məkrli qüvvələrinin diqqətinin Azərbaycanın üstündə fokuslandırılmasına çalışırdılar, indi də. O zaman da Bakıda və Ankarada dostluq və qardaşlığımız dövlət bayraqlarımız səviyyəsində dalğalanırdı, indi də. O zaman sərhəddən və cəbhədən uzaq olan Gəncə şəhəri bombardman edilirdi. İndi isə Tehrandakı səfirliyimiz güllləbaran edilir. Ancaq başqa bir məqamda fərq var. O zaman İran Azərbaycana qarşı gizli düşmənçilik edirdisə, indi həmin "fəaliyyəti" açıq müstəviyə keçirib. Yəni Azərbaycan – Türkiyə qardaşlığı yenə də sınaqlar qarşısındadır. Qoy sınasınlar. Ordumuzun qüdrətini sınayaraq "ağızları bala batmışdı", indi də müttəfiqliyimizi sınayaraq, daha böyük "uğur qazanacaqlar".

Xatırlatdığımız həmin gün – 2020-ci il oktyabrın 19-da Azərbaycan Prezidenti Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentopun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdi. Dövlət başçımız o gün demişdi ki, biz onları döyüş meydanında məğlub edirik. Hər gün cəbhədən çox gözəl xəbərlər gəlir: "Bu gün səhər mən yeni kəndlərin azad edilməsi haqqında məlumat vermişəm. Azərbaycan Ordusu zəfər marşındadır və qarşımızda duran bütün vəzifələr yerinə yetirilir".

Bu il fevralın 1-də isə dövlət başçımız türkiyəli qonaqlarla söhbət zamanı Azərbaycanın Tehrandakı səfirliyinə xaincəsinə edilən terror basqınından söz açdı. Prezident səfirliyin gənc mühafizə əməkdaşının qəhrəmanlığı nəticəsində terrorçunun zərərsizləşdirildiyini və bununla da silahlı şəxsin səfirliyin başqa əməkdaşlarına və onların ailə üzvlərinə hücumunun qarşısının alındığını vurğuladı. Hazırda Azərbaycan tərəfindən bu terror aktının hərtərəfli şəkildə araşdırıldığı diqqətə çatdırıldı. Prezident vurğuladı ki, həmin şəxsin səfirliyimizin binasında törətdiyi terror hadisəsi prosesinin xeyli vaxt çəkməsinə baxmayaraq, İranın polis və təhlükəsizlik qüvvələri tərəfindən hər hansı ciddi tədbir görülməyib.

Təbii ki, Azərbaycan tərəfinin qətiyyət və prinsipiallığı nəticəsində həmin terrorçu da cəzalandırılacaq, hadisənin təşkilatçıları da məlum olacaq. Əminik ki, biz bu prosesdə də tək olmayacağıq. Türkiyəli nazirin dediyi kimi, Ankara İkinci Qarabağ müharibəsində olduğu kimi, bu gün də Azərbaycanın yanındadır. Xalqlarımız ən çətin dövrlərdə həmişə bir-birinin yanında olub və olacaqlar.

Bu zaman xüsusilə vurğulanmalı başqa bir məqam da vardır. Belə ki, Azərbaycan və türk xalqlarının dili də, mədəniyyəti də, tarixi də, ənənələri də, hətta yaşadıqları coğrafiya da eynidir. Ancaq hələ eyniləşdirilməli olduğumuz başqa məqamlar da var. Belə ki, biz hələ ordularımızın peşəkarlıq səviyyəsində eyniliyini təmin etməliyik. Bu məqsədlə dövri olaraq birgə hərbi təlimlər keçirilir. Elmi-texniki yaradıcılıqla məşğul olanların, xüsusilə, gənclərin birgə fəaliyyətini təmin etməliyik. Bu məqsədlə ötən il Bakıda türkiyəli mütəxəssislərin dəstəyi ilə "Teknofest" adlı mühüm beynəlxalq tədbir keçirilmişdir. Ordumuzun arsenalının həm Türkiyə, həm də NATO standartları səviyyəsinə çatdırılması vacibdir. Bu istiqamətdə həyata keçirilən tədbirlərin önündə Türkiyə "Bayraktar"larının Azərbaycan Ordusunun arsenalına verilməsi gedir.

Bir sözlə, Türkiyə həmişə Azərbaycanın yanında olduğu kimi, Azərbaycan da daim Türkiyənin maraq və mənafelərinin təmin olunmasında fəal iştirak edir. Biz bunu dövlət başçılarımızın qardaşlıq münasibətlərində də görürük, diplomatlarımızın beynəlxalq təşkilatlardakı birgə fəaliyyətinin intensivləşdirilməsində də, xalqlarımızın gündən-günə sıxlaşan, səmərəli nəticələr verən əməkdaşlığında da. Bu qarşılıqlı fəaliyyəti Ankara necə görmək istəyirsə, Bakı o səviyyədə reallaşdırır. Bakının arzu və istəkləri isə Ankara tərəfindən məhz bizim görmək istədiyimiz səviyyədə öz təsdiqini tapır.

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***